Azərbaycan müəllimi.- 2026.- 31 yanvar, №4.- S.6.

# QƏHRƏMAN GƏNCLƏR



## Şuşada şəhid olan müəllim

Qoşqar Ömərov Kürdəmirdə doğulub, Abşeron rayonunun Masazır kəndindəki ən müasir məktəblərdən birində, 5 nömrəli tam orta məktəbdə şagirdlərinə hesablama elmini öyrənməkdə bələdçilik edib. Sentyabrın axırına kimi o bir müəllim idi şagirdlərinin gözündə. Sonra müharibəyə çağırılıb və döyüşə-döyüşə Şuşanın Daşaltı kəndinə gedib çıxıb. Noyabrın 5-də şəhidlik zirvəsinə yüksələnədək davam edən ömrü qısa olsa da, məqsədi böyük olan döyüş yolunu da məharətlə 26 illik ömrünə sığdırıb.

2018-ci ildən müəllim idi. Müəllimlərin işə qəbulu müsabiqəsində 57 bal toplayaraq riyaziyyat müəllimi kimi sinfə girmək hüququ əldə etmişdi. Azərbaycan Dövlət Pedaqoji Universitetində bakalavr, Memarlıq və İnşaat Universitetində isə magistr olmuşdu. Doktorantura təhsili də alacaqdı.

Amma vətənin çağırışına qoşulub. Sentyabrın 27-dən Füzuli cəbhəsindən müharibəyə qatılıb, döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilib. Bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak edib, noyabrın 4-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə həlak olana qədər.

Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.